**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA YEYİNTİ SƏNAYESİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Nigar Rəhman qızı Hüseynova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Bakı Biznes Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
Azərbaycanın Əməkdar kənd təsərrüfatı işçisi
**İslam Hacı oğlu İbrahimov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor əvəzi
**Nizami Cəlal oğlu Qafarov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Eldar Əli oğlu Quliyev**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Tariyel Müsəllim oğlu Qurbanov**

Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurası

Birgə Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ____________ iqtisad elmləri doktoru, dosent
**Elşən Əli oğlu İbrahimov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Qloballaşma şəraitində beynəlxalq çağırışlar milli iqtisadiyyatın diversifikasiyasını, yəni şaxələndirilməsini obyektiv zərurətə çevirir. Bütün bunlar qeyri-neft sektorunun inkişafında önəmli rol oynamaqla yanaşı, eyni zamanda postneft əsrində hər bir ölkənin iqtisadi inkişafının sürətləndirilməsini, dövlət büdcəsinə alternativ mənbələrin hesabına gəlirlərin daxil olmasını şərtləndirir. İqtisadiyyatın şaxələndirilməsi prosesi xüsusilə postneft erasında neft ixrac edən ölkələrin inkişafının prioritetlərindən biri hesab edilir. Bu baxımdan Azərbaycan Respublikasında postneft dövründə iqtisadi inkişafın sürətləndirilməsi, davamlı iqtisadi artıma nail olunması qeyri-neft sektorunun inkişafından bilavasitə asılıdır. Qeyri-neft sektorunun inkişafının ən mühüm prioritetlərindən biri yeyinti sənayesinin sürətli və modern inkişafına nail olunması ilə sıx bağlıdır.

Məlum olduğu kimi, yeyinti sənayesi ölkə əhalisinin qida məhsullarına olan tələbatının ödənilməsində önəmli rol oynamaqla yanaşı, eyni zamanda əhalinin məşğulluğunun təmin edilməsinə və bu sahədə çalışan işçilərin gəlirlərinin artımına əlverişli şərait yaradır. Müasir şəraitdə yeyinti sənayesinin inkişafının sürətləndirilməsi, ilk növbədə, bu sahədə istehsal edilən məhsulun rəqabət qabiliyyətinin artırılmasını və məhsulun keyfiyyətinin yüksəldilməsini özündə ehtiva edir. Nəzərə almaq lazımdır ki, yeyinti sənayesində istehsal edilən yüksək keyfiyyətli məhsul, istər qiymət və istərsə də qeyri-qiymət baxımından rəqabət qabiliyyətini təmin etməsi istehsal edilən yeyinti məhsullarının həm daxili və həm də xarici bazarda özünün dayanıqlılığını təmin etməsinə istiqamətlənir. Bu baxımdan yeyinti sənayesinin inkişafının sürətləndirilməsi bu sahənin inkişafında dünya praktikasının tətbiq edilməsi, eləcə də xarici investisiyaların cəlb edilməsi mühüm prioritet istiqamət olmaqla, dövlət büdcəsinə alternativ gəlirlərin daxil olmasını da ön plana çəkir.

Müasir şəraitdə yeyinti sənayesinin inkişaf etdirilməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi dövlətin həm investisiya siyasətinin və həm də regional siyasətinin prioritetlərindən birini təşkil edir. Bu baxımdan etiraf etmək lazımdır ki, yeyinti sənayesinin inkişaf etdirilməsi həm də nəinki ölkənin

ərzaq və iqtisadi təhlükəsizliyinin təmin edilməsində, eyni zamanda idxalı əvəzetmə və ixracın təşviqi ilə bağlı proseslərin reallaşdırılmasında da əhəmiyyətli rol oynayır.

“Azərbaycan Respublikası regionlarının 2019-2023-cu illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi”, “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının qanunu, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” baxımından Azərbaycanda yeyinti sənayesinin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi aktuallıq kəsb edir.

Qeyd etmək lazımdır ki, müxtəlif dövrlərdə yeyinti sənayesinin inkişaf etdirilməsi ilə bağlı müxtəlif səpkilərdə elmi-tədqiqat işləri yerinə yetirilmişdir. Lakin müasir qloballaşma və ərazilərimizin erməni işğalından azad edildiyi bir şəraitdə Azərbaycanda yeyinti sənayesinin inkişafının istiqamətləri ilə bağlı kompleks tədqiqat işləri kifayət qədər yerinə yetirilməmişdir. Məhz bütün bunları nəzərə alaraq adıçəkilən problemin araşdırılması və müvafiq təkliflər hazırlanması dissertasiya tədqiqatının yerinə yetirilməsini obyektiv zərurətə çevirmişdir.

Yeyinti sənayesinin inkişaf problemlərinin müxtəlif aspektlərinin tədqiqi ilə bağlı yerli iqtisadçılarımızdan Z.Ə.Səmədzadə, Ə.X.Nuruyev, E.A.Quliyev, İ.H.İbrahimov, E.R.İbrahimov, B.X.Ataşov, A.F.Abbasov, A.E.Quliyeva, N.C.Qafarov, V.H.Abbasov, M.C.Hüseynov, A.H.Vəliyev və başqaları geniş araşdırmalar aparmışlar. Xarici iqtisadçılardan M.Porter, Blak İ.A., Deniskin V.V., İ.N.Buzdalov, Qonçarov V.D. və başqaları emal sənayesi ilə aqrar sahənin inteqrasiya münasibətləri, ərzaq təhlükəsizliyi və eləcə də emal sənayesinin inkişafı ilə bağlı müxtəlif problemləri araşdırmışlar.

Yuxarıda adıçəkilən iqtisadçı alimlərin yerinə yetirdikləri elmi-tədqiqat işlərinin dəyərini azaltmadan qeyd etmək istərdik ki, bütövlükdə aqrar qloballaşma və ərzağa tələbatın artdığı şəraitdə emal sənayesinin inkişafının və tənzimlənməsinin prioritetləri, eləcə də investisiya cəlbediciliyinin yüksəldilməsi ilə bağlı problemlərin qarşılıqlı sintezi demək olar ki, kompleks şəkildə araşdırılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Respublikasının yeyinti sənayesi müəssisələri təşkil edir.

Tədqiqatın predmetini Azərbaycanda yeyinti sənayesinin inkişafı ilə bağlı fəaliyyət göstərən sahələrdəki iqtisadi münasibətlər, qanunauyğunluqlar, üsul və vasitələr təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədi yeyinti sənayesinin inkişafının elmi-nəzəri əsaslarının tədqiq edilməsindən, eləcə də Azərbaycanda yeyinti sənayesinin inkişafının və inteqrasiyasının mövcud vəziyyətinin araşdırılmasından və nəhayət Azərbaycanda yeyinti sənayesinin inkişafının tənzimlənməsi istiqaməti üzrə elmi-nəzəri cəhətdən əsaslandırılmış və praktik əhəmiyyətli təkliflər işlənib hazırlanmasından ibarətdir.

Tədqiqatın vəzifələrinə aşağıdakılar aiddir:

- qeyri-neft sektorunun inkişafında yeyinti sənayesinin xarakterik xüsusiyyətlərini tədqiq etmək;
- yeyinti sənayesinin inkişafına investisiyaların cəlb olunmasının tənzimlənməsi zəruriliyini əsaslandırmaq;
- yeyinti sənayesinin inkişafını formalaşdıran amilləri müəyyən etmək;
- Azərbaycanda kənd təsərrüfatı ilə yeyinti sənayesinin inteqrasiyasının mövcud vəziyyətini qiymətləndirmək;
- yeyinti sənayesinin idxal-ixracının dinamikasını və bu sahədə münasibətlərin mövcud vəziyyətini təhlil etmək;
- yeyinti sənayesinin inkişafi ilə bağlı investisiya təminatındakı problemləri və mövcud durumu təhlil etmək;
- qlobal çağırışlar baxımından yeyinti sənayesinin inkişaf istiqamətlərini araşdırmaq;
- yeyinti sənayesinin rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətlərini müəyyən etmək;
- yeyinti sənayesinin inkişafına investisiya cəlbediciliyinin stimullaşdırılması istiqamətlərini müəyyənləşdirmək və müvafiq təkliflər hazırlamaq.

**Tədqiqat metodları**. Tədqiqatın metodlarına müqayisəli təhlil, müşahidə, ümumiləşdirmə, iqtisadi-statistik təhlil və ekspert qiymətləndirmə aiddir.

Tədqiqatın nəzəri metodoloji əsaslarına ilk növbədə, yeyinti sənayesinin inkişafi ilə bağlı Azərbaycan Respublikası Prezidenti, Azərbaycan Respublikası Milli Məclisi, Azərbaycan Respublikası

Nazirlər Kabineti tərəfindən qəbul edilən qanunvericilik və digər normativ-hüquqi aktlar aid edilir. Bundan əlavə, tədqiqatın nəzəri metodoloji əsaslarına iqtisad elminin klassikləri tərəfindən yazılmış elmi əsərləri, eləcə də bu sahədə keçirilən beynəlxalq konfrans və simpoziumları, Dünya Bankının və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarını aid etmək olar.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

- postneft erasında qeyri-neft sektorunun inkişafının zəruriliyinin əsaslandırılmasına və xarakterik xüsusiyyətlərin müəyyən edilməsinə qloballaşmanın çağırışları baxımından daha çox ehtiyac vardır;
- yeni iqtisadi şəraitdə yeyinti sənayesinin qeyri-neft sektorunun inkişafında, iqtisadi tərəqqidə və ərzaq təhlükəsizliyində rolunun əsaslandırılması vacib hesab olunur;
- bazar münasibətləri şəraitində yeyinti sənayesinin inkişafina təsir göstərən amillərin təsnifləşdirilməsi və inkişafın iqtisadi vasitələrlə tənzimlənməsi zərurəti meydana çıxmışdır;
- yeni iqtisadi şəraitdə yeyinti sənayesinin innovasiya yönümlü inkişafının əsas prioritetlərinin və inteqrasiyasının müəyyənləşdirilməsinə ehtiyac vardir;
- yeyinti sənayesində idxal-ixrac münasibətlərinin qiymətləndirilməsi və rəqabət qabiliyyətinin yüksəldilməsinin prioritetlərinin müəyyənləşdirilməsi zərurətdən doğur;
- yeyinti sənayesinin inkişafina daxili və xarici investisiyaların cəlb edilməsində iqtisadi tənzimləmə vasitələrinin rolunun əsaslandırılması vacib hesab edilir;
- yeyinti sənayesinə investisiyaların cəlb edilməsi ilə bağlı stimullaşdırma tədbirlərinin həyata keçirilməsinə ehtiyac duyulur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- qeyri-neft sektorunun inkişafında yeyinti sənayesinin rolu və əhəmiyyəti, eləcə də onun ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından strateji əhəmiyyəti əsaslandırılmışdır;
- yeni iqtisadi şəraitdə yeyinti sənayesinə investisiyaların cəlb edilməsinin zəruriliyi əsaslandırılmış və müəyyən edilmişdir ki, investisiyaların cəlb edilməsi mahiyyət etibarilə yeyinti

sənayesində innovasiyalı məhsulların istehsalına və onun bazardakı təklifinin həcminin artmasına əhəmiyyətli təsir göstərilmişdir;

- yeyinti sənayesinin inkişafında aqrar əmtəə istehsalçıları ilə emal sənayesində fəaliyyət göstərən təsərrüfat subyektləri arasında əlaqələrin müasir dövrün tələblərinə uyğunlaşdırılması zərurəti və yeni ərzaq təhlükəsizliyi Dövlət Proqramının hazırlanması əsaslandırılmışdır;
- emal sənayesi ilə kənd təsərrüfatı arasında inteqrasiyanın xarakterinə təsir göstərən amillər aparılmışdır;
- yeni iqtisadi şəraitə uyğun olaraq innovasiya yönümlü yeyinti sənayesinin inkişafının prioritetləri və eləcə də bu prioritetlər çərçivəsində yeyinti sənayesinin xarakterik xüsusiyyətləri nəzərə alınmaqla sahənin modernləşdirilməsi istiqamətləri işlənib hazırlanmışdır;
- yeyinti sənayesində rəqabət qabiliyyətinin yüksəldilməsi və iqtisadi vasitələrlə tənzimlənməsi istiqamətləri müəyyənləşdirilmiş, eləcə də bu sahədəki qiymət və qeyri-qiymət rəqabətinin üstünlükləri üzə çıxarılmışdır;
- yeyinti sənayesində idxal-ixracın tənzimlənməsi istiqamətləri müəyyənləşdirilmişdir;
- yeni iqtisadi şəraitdə yeyinti sənayesinin inkişafına investisiyaların cəlb edilməsindəki mövcud problemlər və stimullaşdırılma istiqamətləri tədqiq edilmişdir;
- yeyinti sənayesinin inkişafının GZİT təhlili aparılmış və bu təhlil çərçivəsində yeyinti sənayesinin inkişafının güclü və zəif tərəfləri aşkar edilmişdir.
- yeyinti sənayesinə investisiyaların cəlb edilməsində əlverişli biznes mühitinin rolu və təsiri araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, yeyinti sənayesinin inkişafının prioritet istiqaməti olaraq ənənəvi məhsul istehsalı ilə ekoloji cəhətdən təmiz məhsul istehsalının sintezi əsasında istehsal prosesinin modernləşdirilməsində faydalı ola bilər. Tədqiqatın praktiki əhəmiyyəti aşağıdakılardan ibarətdir:

- yeyinti sənayesinin inkişafina təsir edən destruktiv meyillərin

təsirlərinin neytrallaşdırılması ilə bağlı elmi cəhətdən əsaslandırılmış ümumiləşdirmələrdən yeyinti sənayesinin inkişaf perspektivlərinə dair materiallar hazırlanmasında istifadə edilə bilər.

- idxalı əvəzetmə siyasəti çərçivəsində yeyinti sənayesinə investisiya qoyuluşlarının artırılması baxımından, bütövlükdə yeyinti sənayesi məhsullarının idxalının həcminin məhdudlaşdırılması və ixracın həcminin artırılması ilə bağlı elmi cəhətdən əsaslandırılmış təkliflərdən yeyinti sənayesinin inkişaf problemlərinin həllinə dair tədbirlər və proqramlar hazırlanmasında faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi**. Dissertasiyanın əsas elmi-nəzəri müdəaları, nəticə və təklifləri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu jurnallar və konfrans materiallarında dərc olunmuş 6 məqalədə (1-i xaricdə olmaqla) və 6 tezisdə (1-i xaricdə olmaqla) öz əksini tapmışdır. Konfrans materialları sırasında "Azərbaycanda sənaye müəssisələrinin ekoloji tənzimlənməsi istiqamətləri" (Bakı, 2018), "The directions of increasing the products of the food industry in the period of technological development" (Bakı, 2020), "Directions of increasing eco-friendly foods production" (Madrid, Spain, 2023) adlı tezisləri göstərmək olar.

Tədqiqat zamanı müəllifin həmçinin "Azərbaycanda yeyinti sənayesinin inkişafı və investisiyanın prioritet istiqamətləri" (Bakı, 2020), "Müasir şəraitdə kənd təsərrüfatı ilə emal sənayesi arasında inteqrasiya münasibətləri və ona təsir edən amillər" (Bakı, 2022), "Qida sənayesi məhsullarının inkişafına və formalaşmasına təsir edən amillər" (Bakı, 2022), "The development of food industry in ensuring of the food security" (Budapest, Hungary, 2022) adlı məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Bakı Biznes Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi girişdən, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş (11572 işarə), I fəsil (64847 işarə), II fəsil (61293 işarə), III fəsil (62774 işarə), nəticə (10656 işarə) və istifadə edilmiş

ədəbiyyat siyahısı (13466 işarə) üzrə ümumi həcm 239857 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, sxemlər, istifadə olunmuş ədəbiyyat siyahısı və ixtisarların siyahısı istisna olmaqla 211142 işarədir.

## TƏDQİQATIN QISA MƏZMUNU

Dissertasiya işinin "**Girişində**" mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsədi və vəzifələri, predmeti, müdafiəyə çixarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti, aprobasiyası şərh edilir və əsaslandırılır.

Dissertasiya işinin **"Yeyinti sənayesinin inkişafının elmi nəzəri əsasları"** adlı I fəslində qeyri-neft sektorunun inkişafında yeyinti sənayesinin xarakterik xüsusiyyətləri, yeyinti sənayesinin inkişafının tənzimlənməsinin zəruriliyi, yeyinti sənayesinin inkişafının formalaşması amilləri tədqiq olunur.

Məlumdur ki, insanların yaşaması üçün lazım olan ərzaq məhsullarını təbiət hazır halda vermir. Ona görə də insanlar yaşamaq üçün onların həyati tələbatı üçün zəruri olan bütün ərzaq məhsullarını və digər maddələri istehsal etməyə məcburdurlar. Akademik Z.Ə.Səmədzadə haqlı olaraq qeyd edir ki, qidalanma, ilk növbədə insanın bədən üzvlərinin və sistemlərinin normal işləməsi, fizioloji tələbatın ödənilməsi üçün vacib şərtdir. Düzgün qidalanmaya riayət edilməsi onların fəaliyyət müddətini davamlı və qüsursuz etmiş olur. Düzgün qidalanma tələblərinə əməl etmək insanlardan bilik və savadla yanaşı, buna kifayət edə biləcək büdcəyə malik olmağı da tələb edir. Eyni zamanda, o da qeyd edilməlidir ki, qidalanma səviyyəsi ilk növbədə iqtisadi inkisaf səviyyəsi ilə də bağlıdır.[1]

Qeyd edilir ki, yeyinti sənayesi, qeyri-neft sektorunun mühüm tərkib hissəsini təşkil edir. Bu baxımdan aqrar sahə ilə emal sənayesinin inteqrasiyası qarşılıqlı faydalı əməkdaşlıq əsasında qurulmalı və hər iki sahənin özünəməxsus spesifik xüsusiyyətləri nəzərə alınmalıdır. Kənd təsərrüfatı sektoru xammal istehsalının həyata keçirilməsini özündə birləşdirir, emal sənayesi isə həm kənd

---

[1] Səmədzadə, Z.Ə. Azərbaycan iqtisadiyyatı 100 ildə: IV cild. Bakı, 2022-592 s.

təsərrüfatı istehsalçıları üçün səmərəli bazar, həm da istehlakçılar üçün hazır qida məhsullarının təklifçisi kimi çıxış edir. Yeyinti sənayesində rəqabət qabiliyyətli və yüksək keyfiyyətli məhsul istehsalının həyata keçirilməsi, ilk növbədə kənd təsərrüfat xammalının keyfiyyətindən və onun qiyməti rəqabət qabiliyyəti və yeyinti sənayesi müəssisələrinin modernləşdirilməsindən bilavasitə asılıdır. Kənd təsərrüfatı ilə yeyinti müəssisələri arasında səmərəli inteqrasiya münasibətlərinin formalaşması bazar mexanizminin xüsusiyyətlərinə uyğun qurulmaqla yanaşı, həm də kənd təsərrüfatının azad rəqabət şəraitində səmərəli fəaliyyət göstərməsinə də uyğunlaşdırılmalıdır. Yeyinti sənayesində modernləşmə prosesinin həyata keçirilməsi bu sahənin investisiyalaşmasını tələb edir. Kənd təsərrüfatından fərqli olaraq emal sənayesinə investisiyaların qoyulması nisbətən az risk tələb edir.

Yeyinti sənayesinin inkişafının ən mühüm problemlərindən biri də qlobal təhdidlərin güclənməsi və eləcə də qlobal bazarlara inteqrasiya prosesinin bir sıra hallarda destruktiv təzahürlər doğurması ilə bağlıdır. Lakin, bütün bunlara baxmayaraq respublikamızda emal sənayesinin inkişafının özünəməxsus üstünlükləri də mövcuddur. Belə ki, Bakı Aqlomerasiyası istisna olmaqla respublikamızın digər iqtisadi rayonları bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşmışdır. Məhz ixtisaslaşmanın şərtlərini nəzərə alaraq, respublikamızın təbii iqtisadi bölgələrində istehsal edilən məhsulun növü və xarakteri əsas götürülməklə emal müəssisələrinin yaradılması ön plana çəkilməlidir.

Azərbaycanda spesifik amillər bitkiçilik, heyvandarlıq və təbii xammal mənbələri üzrə ixtisaslaşmış emal müəssisələrinin yaradılmasına əlverişli şərait formalaşdırır. Həm də kənd təsərrüfatının çeşid müxtəlifliliyi mövcuddur, məhsulların ilkin və təkrar emalı şəhər və kəndlərdə fəaliyyət göstərir. Bu xüsusiyyətləri nəzərə almaqla yeyinti sənayesinin inkişafını şərtləndirən bir sıra amillər fərqləndirilir.

Bunlara aşağıdakıları şamil etmək olar:

1. Kənd təsərrüfatı: bitkiçilik və heyvandarlığın inkişaf etdirilməsi, yeyinti sənayesinin əsasını təşkil edən və ilkin emala əsaslanan xammal bazasının mövcud tələbatın ödənilməsi istiqamətində inkişafı;

2. Qida məhsullarının emalı: bazar üçün təzə məhsulların hazırlanması və hazırlanmış qida məhsullarının istehsalı istiqamətində müəssisələrin inkişafı;

3. Marketinq - ümumi məhsulların (məsələn , çörək , süd və s. ) və yeni məhsulların reklam, marketinq kampaniyalar, qablaşdırma, ictimai əlaqələr və s. üzrə işlərin həyata keçirilməsi;

4. Topdan və pərakəndə satışı təşkil etmək məqsədilə nəqliyyat və beynəlxalq logistika xidmətinin genişləndirilməsi və inkişafı. Hazırda bir çox ümumbəşəri problemlərin həlli üçün beynəlxalq iqtisadi əlaqələrin inkişafı və beynəlxalq əmək bölgüsü əsasında aparılan ticarət əlaqələri böyük əhəmiyyət kəsb edir. Ərzaq məhsullarının alqı-satqısı ilə bağlı beynəlxalq ticarət əlaqələrinə daha diqqətlə yanaşmaq zərurəti yaranmışdır. Təcrübə göstərir ki, ərzaq məhsullarına külli miqdarda kapital sərf edərək xarici ölkələrdən daşınması əvəzinə, onların yerli istehsalının təşkili daha böyük fayda verir.

5. Ən son texnoloji yeniliklərin istehsalata tətbiqi nəticəsində ölkənin artmaqda olan tələbatının ödənilməsi ilə yanaşı beynəlxalq miqyasda ixracyönümlü siyasət yürütməklə dünya bazarında qida məhsullarının satış bazarında müəyyən paya malik olmaqla iqtisadi inkişafa təkan vermək olar.

Göstərilənlərə əsasən yeyinti sənayesinin kənd təsərrüfatı ilə qarşılıqlı əlaqəsini (sxem 1.), onun milli təhlükəsizlik prosesindəki və iqtisadi müstəqilliyin təmin olunmasında rolunu nəzərə alaraq qida sənayesində istehsal potensialından daha səmərəli istifadə edilməlidir. Hesab edirik ki, yeyinti sənayesinin istehsal potensialının əsas komponentlərinə aşağıdakılar daxil edilə bilər: 1) texniki və texnoloji potensial; 2) təşkilati potensial; 3) maliyyə potensialı; 4) kadr potensialı və s.

Ərzaq məhsullarının istehsal və təminatının fasiləsizliyini təmin etmək üçün yeyinti sənayesinin istehsal potensialı da fasiləsiz və daim təkrarlanmalıdır. Bu, o halda təmin edilə bilər ki, istehsal potensialının elementləri sistemdə dövr edən məlumatları, həm ayrı-ayrı elementlərin vəziyyəti və onların qarşılıqlı əlaqələri, həm də istehsal potensialının tərkib hissələrinin xüsusiyyətləri, onun qarşısında duran məqsəd və vəzifələrin texniki-iqtisadi parametrləri

nəzərə alınmaqla təkrar istehsal oluna bilsin. Bu baxımdan istehsal potensialının optimal həcmi mövcud ehtiyatlardan səmərəli istifadə zamanı regionun ərzaq bazarının potensialına uyğun olan ərzaq məhsullarının istehsalına yönəldilməlidir.

Yeyinti sənayesində istehsal potensialının optimallaşdırılması istehsal olunan məhsulun nomenklaturası üzrə artırılması deyil, sahənin inkişaf məqsədlərinə, onun vəzifələrinin yerinə yetirilməsinə daha uyğun olmasına nail olmaq kimi qiymətləndirilir. Yeyinti sənayesində istehsal potensialının optimallaşdırılmasının səmərəli həlli yeyinti sənayesinin xarakterik xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilməlidir.




**Sxem 1. Yeyinti sənayesinin ilə kənd təsərrüfatının qarşılıqlı əlaqəsi**

*(Sxem müəllif tərəfindən tərtib edilmişdir.)*

Göstərilənlərə əsasən yeyinti sənayesinin inkişafının aqrar istehsalın inkişafı ilə sıx əlaqəli olduğunu nəzərə alaraq onun xarakterik xüsusiyyətlərini aşağıdakı kimi səciyyələndirmək olar:

- yeyinti sənayesinin nəticələrinin təbii şəraitdən asılı olması;

- mülkiyyət formalarının müxtəlifliyi ilə;

- kənd təsərrüfatında iş dövrü ilə istehsal dövrünün üst-üstə düşməməsi ilə bağlı yeyinti sənayesinin təchizatında fasilələr yaranmasının mövsümi xarakteri ilə;

- aqrar sahənin inkişafının tənzimlənməsində dövlətin aparıcı rolu ilə;

- emal müəssisələrinin azlığı və texnologiyanın tələbatdan geri qalması üzündən emal məqsədləri üçün istifadə edilən bəzi kənd təsərrüfatı məhsullarının xüsusi çəkisinin az olması ilə;

Qeyd edilir ki, yeyinti sənayesinin inkişafı üçün aşağıdakılar nəzərə alınmalıdır:

- yeyinti sənayesində həyati əhəmiyyət kəsb edən əmtəələr, məhsullar ayrı-ayrı fərdlərin yaşı, cinsi, adət-ənənələri və s. nəzərə alınmaqla ehtiyacları və maraqları həcmində, çeşidində vaxtında təmin edilməlidir;

- yeyinti sənayesinin bəzi sahələrinin kənd təsərrüfatı xammalına tələbatı aşağıdır və bu səbəbdən kənardan ərzaq yönümlü məhsullar idxal olunur;

- kənd təsərrüfatı məhsullarına olan tələb az elastik və ya qeyri-elastik olduğundan bu məhsullara olan tələbdə xüsusi artım baş vermir, qiymət fərqlərinin təsiri ilə istehsal zərərlə başa gəlir və s.

Yeyinti sənayesi müəssisələrinin inkişafını şərtləndirən amillər qrupuna aşağıdakıları aid edə bilərik:

- yeyinti sənayesinin inkişafına bilavasitə təsir edən iqlim və relyef amili;

- geniş və çox çeşidli xammal bazasının ehtiyatlarının mövcudluğu amili;

- əhalinin artımı və ətraf muhit amili;

- ənənəvi sənaye müəssisələrinin və infrastukturun mövcudluğu amili;

Dissertasiyada yeyinti sənayesinin tənzimlənməsi məsələlərinə mühüm yer ayrılmışdır. Burada sahənin intensiv inkişafı, iqtisadi təhlükəsizlik, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması və bir çox sosial-iqtisadi problemlərin həlli investisiya qoyuluşu və onun tənzimlənməsi ilə əlaqələndirilir.

Araşdırmalarımız göstərir ki, yeyinti sənayesinin inkişafı kontekstində regional fərqlər nəzərə alınmaqla, investisiya cəlb edilməsinin tənzimlənməsi (tarazlaşdırılması) zəruriliyini aşağıdakı amillərlə şərtləndirmək olar:

- yeyinti məhsulları istehsalı və xammalı, həmçinin yeyinti sənayesinə xidmət göstərən sahibkarlıq fəaliyyətinin maliyyə imkanlarının məhdud olması;
- yeyinti sənayesində istifadə edilən texniki-texnoloji avadanlığın müəyyən qədər köhnəlməsi, inteqrasiyanın, infrastrukturun tələbatdan geri qalması;
- ölkənin daxili ehtiyatları hesabına rəqabət qabiliyyətli, yeni istehsal və xidmət növlərinin yaradılmasının ləng inkişafı və s.

Yeyinti məhsullarının strukturu ilk növbədə yeyinti sənayesi müəssisələrinin formalaşdırılmasında başlıca amillərdəndir. Bu amilin nəzərə alınması, fikrimizcə, yeyinti sənayesinin modernləşdirilməsinin mühüm tərkib hissəsi kimi dəyərləndirilməlidir. Yeyinti məhsullarının strukturu aşağıdakı sxemdə göstərilmişdir.




**Sxem 2. Yeyinti məhsullarının strukturu**
*(Sxem müəllif tərəfindən tərtib edilmişdir)*

Qeyd etmək lazımdır ki, yeyinti sənayesinin inkişafının tənzimlənməsinin zəruriliyi kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi, regionlarda əhali məşğulluğunun və gəlirlərinin artırılması baxımından mühüm əhəmiyyətə malikdir. Kiçik və orta sahibkarlığın, aqrar bölmənin, eləcə də yeyinti sənayesinin kifayət qədər stimullaşdırılmaması, ərzaq məhsulları bazarına lazımi qədər xarici investisiyaların cəlb edilməməsi, infrastruktur problemlərinin həll olunmaması, bazar münasibətlərinin yeni münasibətlər baxımından formalaşdırılmaması, regionların sosial-iqtisadi inkişafi istiqamətində işlərin ləng getməsi, yerlərdəki məmurlardan qaynaqlanan subyektiv problemlər də ölkədə ərzaq təhlükəsizliyinin təminini çətinləşdirən səbəblər arasındadır.[2]

Göstərilənlərlə əlaqədar, əhalinin ərzaq təhlükəsizliyinin dövlət tənzimlənməsi tədbirləri həyata keçirilir. İqtisadi tənzimləmədə icra orqanları tərəfindən tərtib olunan dövlət və regional ərzaq balansları əsasında, yeyinti məhsulları istehsalının stimullaşdırılması, keyfiyyət göstəricilərinin normalaşdırılması və sertifikatlaşdırılması, yeyinti məhsulları istehsalının, tədarükünün, satışının, habelə idxal və ixracının uçotu və nizamlamnası, rəqabətin inkişaf etdirilməsi, yerli istehsalçıların hüquq və mənafelərinin qorunması, istehsalçıdan istehlakçılara çatdırılmasına qədər yeyinti məhsullarinin keyfiyyətinə və təhlükəsizliyinə nəzarət, ərzaq proqramlarının hazırlanmasının və həyata keçirilməsinin xarici sərmayələr də cəlb edilməklə maliyyələşdirilməsi nəzərdə tutur.

Bununla yanaşı yeyinti sənayesinin inkişaf və formalaşması bir sıra amillərin nəzərə alınmasını tələb edir:

1. İlkin emal sənayesi müəssisələri xammalın əsas tədarükçüsü olan kənd təsərrüfatının fəaliyyətindən birbaşa asılıdır. Kənd təsərrüfatı müəssisələrinin fəaliyyəti mövsümi xarakter daşıyır, istehsal yüksək qeyri-müəyyənliklə səciyyələnir.

2. Yeyinti sənayesi müəssisələrinin əksəriyyətinin məhsulları strateji planlaşdırmada mühüm metodoloji aspekt olan material tutumudur. Məhsulun maya dəyərində maddi xərclərin payına 60%-

[2] İbrahimov, İ.H. Kənd təsərrüfatının inkişafı və sahibkarlığın formalaşması problemləri. Bakı, 2005. 360 s.

80% arasında dəyişir. Müəssisələrin fəaliyyətinə qiymət, keyfiyyət və çatdırılma şərtləri xüsusi təsir göstərir.

3. Yeyinti sənayesinin bir çox müəssisələri üçün xammal və materiallara vəsait qoyulması və məhsul üçün ödəniş edilməsinin (məsələn, meyvə-tərəvəz, yağ-piy sahələrində və s.) , tez xarab olan xammalın böyük ehtiyatının yaradılmasının obyektiv zəruriliyi mövcuddur.

4. Ərzaq sənayesi məhsullarının əsas istehlakçısı əhalidir. Hazırda, bir çox yeyinti müəssisələrinin inkişafını məhdudlaşdıran bazarda alıcılıq qabiliyyətinin aşağı olması istehsal xərclərinin sərt planlaşdırılmasını, xərclərin azaldılması ehtiyatlarının axtarışını və həyata keçirilməsini ön plana çıxarır.

5. Yeyinti sənayesi müəssisələri müəyyən texnologiyadan istifadə etmək üçün öz strategiyasını qurduğundan, onun dəyişdirilməsi yalnız vaxt və resursların əhəmiyyətli xərcləri ilə həyata keçirilə bilər. Buna görə də yeyinti sənayesi müəssisələrinin fəaliyyətində şaquli inteqrasiya əhəmiyyət kəsb edir.

Dissertasiya işinin **"Azərbaycanda yeyinti sənayesinin inkişafının mövcud vəziyyətinin təhlili"** adlanan II fəsildə Azərbaycanda kənd təsərrüfatı və yeyinti sənayesinin inteqrasiyasının, idxal-ixrac münasibətlərinin və sahədə investisiya təminatının mövcud vəziyyətinin təhlili aparılmışdır.

Qeyd edilir ki, kənd təsərrüfatı ilə yeyinti sənayesi arasında inteqrasiya münasibətlərinin formalaşdırılmasında başlıca məqsəd kənd təsərrüfatı xammalından məhsul və iqtisadi səmərə əldə etmək məqsədi ilə ixtisaslaşmış kənd təsərrüfatı və yeyinti müəssisələri arasında güclü əlaqələr yaratmaqdır. Bu qloballaşma şəraitində kənd təsərrüfatı ilə yeyinti sənayesi müəssisələri arasında inteqrasiya münasibətlərinə ilk növbədə bazar vektorları, global təhdidlər və dövlətin strateji maraqları fonunda ərzaq təhlükəsizliyinin təmin edilməsi başlıca prinsip sayılır.

Kənd təsərrüfatı ilə yeyinti müəssisələri arasında inteqrasiya münasibətlərinin əsas prinsiplərinə aşağıdakılar şamil edilir:

- əmtəə istehsalçıları ilə yeyinti müəssisələri arasında qarşılıqlı faydalı iqtisadi münasibətlər sisteminin qurulması;
- resursların iqtisadiyyatın ən perspektivli sahələrinə yönəldilməsi;

- kənd təsərrüfatı əmtəə istehsalçıları və yeyinti sənayesi müəssisələri arasında qarşılıqlı hesablaşmalarda müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə edilməsi;

- istehsal cdilən məhsulların daxili və xarici bazarlarda rəqabət qabiliyyətinin yüksəldilməsi;

- kənd təsərrüfatı əmtəə istehsalçılarının optimal rentabellik səviyyəsinin təmin edilməsi.

Kənd təsərrüfatı və yeyinti sənayesi arasında inteqrasiya münasibətlərinin nəticələri mahiyyət etibarilə yeyinti sənayesi məhsullarının istehsalında da özünü təcəssüm etdirir. Bu baxımdan əsas yeyinti məhsulları istehsalının dinamikasi aşağıdakı cədvəldə göstərilmişdir.

**Cədvəl 1**

**Yeyinti sənayesi məhsulları istehsalının dinamikası (min tonla)**

| | **2018** | **2019** | **2020** | **2021** | **2018-ci ilə nisbətən 2021-ci ildə +, -** |
|---|---|---|---|---|---|
| Pendir və kəsmik, min ton | 50, 1 | 51, 3 | 53, 5 | 59, 3 | + 9,2 |
| Kərə yağı, min ton | 23, 6 | 24, 1 | 24, 6 | 27, 0 | + 3,4 |
| Qənd və şəkər tozu, min ton | 203, 1 | 271, 0 | 246, 3 | 340, 6 | +137,5 |
| Makaron məmulatı, min ton | 4, 2 | 4, 2 | 11, 3 | 19, 9 | +15,7 |
| Bitki yağları, min ton | 71, 1 | 75, 1 | 75, 1 | 35, 9 | -35,2 |
| Marqarin, min ton | 47, 2 | 47, 3 | 49, 9 | 47, 6 | +0,4 |
| Şampan şərabı, min dkl | 3, 1 | 0, 5 | 0, 4 | 0, 6 | -2,5 |
| Üzüm şərabı (ümuni), min dkl | 1574, 3 | 877, 3 | 895, 0 | 1011, 6 | -562,7 |
| Pivə, min dkl | 4662, 0 | 5083, 3 | 5466, 3 | 4707, 3 | +45,3 |
| Təbii çay, min ton | 9, 3 | 9, 8 | 10, 6 | 10, 2 | +,9 |
| Fermentləşdirilmiş tütün, ton | 3501, 7 | 4621, 2 | 4383, 7 | 4276 | +774,3 |

*Mənbə: [13, s. 39-41, 49, 60-61] ( https://www.stat.gov.az)*
*(Cədvəl müəllif tərəfindən tərtib edilmişdir)*

Cədvəldən göründüyü kimi, 2018-ci illə müqayisədə 2020-ci illərdə bəzi yeyinti və sənaye məhsulları artmış, bəzi məhsullar isə azalmışdır. Müqayisə olan dövrdə ölkədə şampan və üzüm şərabının

istehsalında azalma meyilləri əsas etibarilə pandemiya, eləcə də satış problemlərinin yaranması ilə sıx bağlıdır. Belə ki, pandemiya şəraitində əhali əsasən qida məhsullarının istehlakına daha çox üstünlük vermişdir. Hesablamalar göstərir ki, üzümçülük və şərabçılığın əvvəlki şöhrətinin özünə qaytarılması, mahiyyət etibarilə ölkəmizdə rəqabət qabiliyyətli şərab məhsullarının istehsalının təmin edilməsi təxminən 5-6 ildən sonra hər ölkəyə təxminən 2,5-3 milyard ABŞ dollar məbləğində gəlir gəlməsini təmin edə bilər.

Son illər aqrar sahədə makroiqtisadi sabitliyin və davamlı inkişafın təmin edilməsi, agroservis xidmətləri və aqroparkların yaradılması emal müəssisələrinin inkişafında əhəmiyyətli rol oynamaqdadır. Ərzaq təhlükəsizliyində mühüm xarakter daşıyan taxıl istehsalı ilə bağlı respublikada 170-dən çox un dəyirmanı fəaliyyət göstərir. Bakıda Avropa firması, Taxıl Açıq Səhmdar Cəmiyyəti (ASC), Abşeronda Milla, Aspirco LTD, Ağcabədidə Atena, Biləsuvarda, Gəncə, Şabran, Sumqayıt, Ağsu və s. rayonlarda müasir tələblərə cavab verən emal müəssisələri fəaliyyət göstərir. Xırdalanda Bakı Süd Emalı Sexi, Zəhmət, Ruzi, ASC və heyvandarlıq məhsullarının istehsalı üzrə ixtisaslaşmışdır. Bakı Süd Emalı Sexində istehsal olunan yoqurt, Qəbələ rayonunda istehsal edilən meyvə-giləmeyvə şirələri xaricdən idxalı azaltmaqla yanaşı, ixracın da artmasında böyük rol oynamışdır. Azərsun Holding şirkətinin müxtəlif növ ərzaq məhsulları istehsalı və satışı ilə yanaşı, Azərsun kənd təsərrüfatı MMC də fəaliyyət göstərir. Bu cəmiyyətin şəkər çuğunduru, günəbaxan, arpa, buğda, noxud, qarğıdalı, pomidor, xiyar, konserv məhsulları və s. istehsalı ilə məşğul olan müəssisələrindən biri olan Miripark ticarət və sənayesi şirkətidir. Şirkət təbii şirələr, mürəbbə, cem və müxtəlif konserv məhsullarını istehsal edir və həmin məhsulları daxili bazara yönəltməklə yanaşı, eyni zamanda MDB ölkələrinə, Pribaltika ölkələrinə, uzaq və yaxın şərq ölkələrinə, ABŞ-a, Çinə və digər Avropa ölkələrinə ixrac edir. Respublikamızda yeyinti məhsullarının istehsalı sahəsində Azersun holding əhəmiyyətli mövqe nümayiş etdirir. Bu şirkətin strukturunda Bakı qida yağ fabriki MMC, Azersun ticarət və dağıtım MMC, SUN FOOD servis MMC, Qafqaz Konserv zavodu, Qazax Konserv zavodu, Kürdəmir süd emalı zavodu MMC, Soni Tea çay fabriki və s. fəaliyyət göstərir.

Yeyinti sənayesinin inkişafının ən mühüm prioritetlərindən biri də istehsal edilən məhsulların dünya bazarına effektiv şəkildə çıxarılmasına nail olunmasıdır. Bütün bunlar xarici ticarət şərtlərinin yaxşılaşdırılmasını, idxalın əvəz edilməsini, ixracın strukturunun təkmilləşdirilməsini tələb edir. Son illər respublikamızda çoxsaylı yeyinti sənayesi müəssisələri yaradılsa da, ölkəmizə idxal olunan yeyinti məhsullarının həcmi hələ də yüksək səviyyədədir.

**Cədvəl 2**

**Əsas növ yeyinti məhsullarının idxalının dinamikası**

| Məhsulların adı | 2018 | | 2020 | | 2021 | |
|---|---|---|---|---|---|---|
| | miqdarı, ton | məbləği, min ABŞ dolları | miqdarı, ton | məbləği, min ABŞ dolları | miqdarı, ton | məbləği, min ABŞ dolları |
| İribuynuzlu heyvan əti | 8326,8 | 25208,9 | 9769,1 | 36718,8 | 5721,1 | 22309,4 |
| Quş əti və onun əlavələri | 34091,3 | 38769,9 | 29809,1 | 34419,4 | 30924,1 | 41318,4 |
| Təzə və dondurulmuş balıq | 10177,7 | 17109,0 | 9743,8 | 19295,9 | 12159,6 | 21066,1 |
| Süd və qaymaq | 9511,4 | 12652,5 | 9657,3 | 15312,8 | 11190,5 | 14743 |
| Kərə yağı, digər süd yağları və pastaları | 12115,3 | 69690,0 | 16806,4 | 82608,3 | 15043,3 | 78856,1 |
| Quş yumurtaları, min ədəd | 54876,2 | 10262,5 | 27938,0 | 6031,2 | 51858,9 | 10354,3 |
| Kartof | 151 232,2 | 38642, 1 | 182 653,8 | 49 517, 4 | 214970, 4 | 55799,4 |
| Təzə tərəvəz | 16 496, 9 | 9 162, 6 | 35 290,7 | 18 906, 3 | 39649 | 20549 |
| Təzə meyvə | 106 583,1 | 96660, 2 | 123 009,2 | 112 444,6 | 124347 | 117402 |
| Çay | 12957, 8 | 49807, 3 | 13 984,9 | 56187, 2 | 13965 | 61858 |
| Buğda, min ton | 1080,9 | 205968, 1 | 1365,1 | 296905,2 | 1148,1 | 331946 |
| Düyü | 49826,1 | 36431, 2 | 56884, 3 | 38949,3 | 46765,5 | 33922,9 |
| Buğda unu | 2124,4 | 814,1 | 2909,8 | 1150,9 | 3523,9 | 1452,4 |
| Bitki yağları | 129950,3 | 109445, 5 | 139628, 2 | 129469, 0 | 130144 | 181375 |
| Marqarin, qida üçün yararlı digər qarışıqlar | 22856,3 | 29410, 9 | 23549, 9 | 29057,0 | 23147,8 | 36907 |
| Ət kolbasası və digər analoji məhsullar | 2847,8 | 9380,2 | 4656,5 | 13479,7 | 5567,1 | 16208 |
| Ət və balıq konservləri | 5591,3 | 14994, 3 | 6576,2 | 18464,7 | 6714,7 | 21291,8 |
| Pivə, min dkl. | 472,1 | 4973,8 | 354,4 | 3695,8 | 373,7 | 4222,5 |

*Mənbə: [9. s. 593-603, 14. s. 71-72] (https://www.stat.gov.az) (Cədvəl müəllif tərəfindən tərtib edilmişdir)*

Cədvəldən göründüyü kimi, 2018-2021-ci ildə ölkəyə iribuynuzlu heyvan əti, quş əti və onun əlavə məhsulları, təzə dondurulmuş balıq, süd və qaymaq, kərəyağı, digər süd yağları və pastaları, quş yumurtası, kartof, təzə tərəvəz, meyvə, çay, buğda, qarğıdalı, düyü, buğda unu, bitki yağı, ət və balıq konservləri, şəkər, şəkərdən hazırlanan qənnadı məlumatları, pivə, təbii üzüm şərabları və üzum souslar, araq, etil spirti, tütün və s. məhsullar idxal edilmişdir. İdxal həcmi 2021-ci ildə 2018-2020-ci ilə nisbətən xeyli dəyişmişdir.

Yeyinti məhsullarının ixracının dinamikası aşağıdakı cədvəldə göstərilmişdir.

**Cədvəl 3**

**Yeyinti məhsullarının ixracının dinamikası (məbləğ-min ABŞ dolları)**

| Malların adı | 2018 | | 2020 | | 2021 | |
|---|---|---|---|---|---|---|
| | Miqdarı ton | məbləği | Miqdarı ton | məbləği | Miqdarı ton | məbləği |
| Kartof | 66563,4 | 29627,5 | 81388,3 | 33786,2 | 92343 | 40077, 7 |
| Təzə tərəvəz | 233332, | 202811, | 18530,3 | 219968,5 | 173812 | 179786 |
| Təzə meyvə | 319187,9 | 324780,7 | 301080,9 | 349886,2 | 361898 | 403550 |
| Çay | 1367,0 | 9373,9 | 1357,2 | 9461,4 | 1115,7 | 8491,5 |
| Bitki yağları | 10842,2 | 9353,8 | 14043,4 | 12238,3 | 11889 | 15860 |
| Marqarin qida üçün yararlı digər qarışıqlar | 2768, 5 | 2819,8 | 3907,8 | 4 215,1 | 3086,7 | 4379 |
| Şəkər, min ton | 44,1 | 24974,7 | 60,6 | 26904,3 | 59,1 | 32093 |
| Meyvə və tərəvəz konservləri | 6688,7 | 7753,6 | 7191,2 | 8727,8 | 8512,9 | 9581 |
| Meyvə və tərəvəz şirələri | 7487,2 | 9 672,8 | 11856,3 | 15779,5 | 12707,7 | 15449, 5 |

*Mənbə: [9, s.596-615; 14, s. 80-82]( https://www.stat.gov.az) (Cədvəl müəllif tərəfindən tərtib edilmişdir)*

Cədvəldən göründüyü kimi, 2018-ci ildə müqayisədə 2020-2021-ci illərdə ölkədən ixrac edilən yeyinti məhsullarının həcmində artım meylləri müşahidə edilmişdir. Beləliklə, belə qənaətə gəlmək olar ki, ölkənin xarici iqtisadi fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsinə kəskin ehtiyacı vardır.

Hazırda iqtisadiyyatın investisiyalaşdırılmasının prioritetləri demək olar ki, fərqli xarakter daşıyır. Bu baxımdan qeyri-neft sektorunun inkişafının investisiyalaşdırılması mühüm əhəmiyyətə malikdir. Qeyri-neft sektorunun inkişafı baxımından respublikamızın iqtisadiyyatında neftdən sonrakı inkişaf etdirilməli ən mühüm sahələrdə ilk növbədə kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə malik olan yeyinti sənayesi və turizm sektoru əhəmiyyətli rol oynaya bilər.

Qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatına yatırılan məcmu investisiyaların strukturunda daxili investisiyaların xüsusi çəkisinin artması mahiyyət etibarilə ölkənin xarici investisiyalardan asılılığının aşağı salınmasında əhəmiyyətli rol oynamaqdadır və hesab edirik ki, bu müsbət meyl sayıla bilər.

Yeyinti sənayesi müəssisələrində real investisiya proseslərini həyata keçirmək üçün bu prosesin bir sıra xüsusiyyətlərini də nəzərə almaq vacibdir. Hesab edirik ki, real investisiya layihələri ölkənin iqtisadi inkişaf strategiyasının həyata keçirilməsində ən mühüm vasitələrdən biri hesab olunur.

Yeyinti sənayesinə qoyulan investisiyaların dinamikası və strukturu aşağıdakı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 4**

**Yeyinti sənayesində əsas kapitala yönəldilmiş investisiyaların həcmi və strukturu (milyon manat)**

| Göstəricilər | 2017 | 2020 | 2021 | 2021-ci ildə 2017-ci ilə nisbətən +, - % |
|---|---|---|---|---|
| Bütün sənaye | 10610, 1 | 9065, 3 | 7507, 3 | -78,1 |
| xarici investisiyalar | 6989, 5 | 3845, 6 | 3169, 1 | -220 |
| daxili investisiyalar | 3620, 6 | 5219, 7 | 4338, 2 | +1,2 dəfə |
| Emal sənayesi | 652, 6 | 2610, 5 | 2018, 0 | +3,92 |
| xarici investisiyalar | 32, 0 | 19, 9 | 13, 0 | -2,4 |
| daxili investisiyalar | 620, 6 | 2590, 6 | 2005, 0 | +223 |
| Qida məhsullarının istehsalı | 125, 5 | 225, 1 | 197, 8 | +1,6 |
| xarici investisiyalar | 32, 0 | 18, 8 | - | -100 |
| daxili investisiyalar | 93, 5 | 206, 3 | 197, 8 | +2,1 |
| İçki istehsalı | 26, 9 | 39, 4 | 39, 1 | +1,4 dəfə |
| daxili investisiyalar | 26, 9 | 39, 4 | 39, 1 | +5 dəfə |
| Tütün məmulatlarının istehsalı | 0, 4 | 4, 3 | 2, 2 | +1,5 dəfə |
| daxili investisiyalar | 0, 4 | 4, 3 | 2, 2 | +1,5 dəfə |

*Mənbə: [12, s. 72] (https://www.stat.gov.az) (Cədvəl müəllif tərəfindən tərtib edilmişdir)*

Təhlil göstərir ki, iqtisadiyyatın yeyinti sənayesi sektoruna yatırılan investisiyalar həm daxili bazarda sabitliyin qorunub saxlanılmasına, həm qiymətlərin səviyyəsinin sabitləşdirilməsinə və həm də xarici bazarlara yeyinti məhsullarının ixracına əlverişli şərait yarada bilər. Yeyinti sənayesinə investisiyaların qoyuluşu zamanı bəzi şərtləri nəzərə almaq lazımdır. Bunlardan birincisi, iqlim və relyef amili, ikincisi çox çeşidli xammal bazasının mövcudluğu və üçüncüsü ənənəvi sənaye müəssisələrində infrastruktur sisteminin kifayət qədər geniş şəkildə təhlil edilməməsidir. Dünya təcrübəsindən çıxış etsək belə qənaətə gəlmək olar ki, alıcıların tələbatını nəzərə almaqla məhsul istehsalı prosesi istehlakçılara uyğun qurulmalıdır və bu da əslində investisiyalaşdırma prosesində ön plana çəkilməlidir.

Dissertasiya işinin **"Azərbaycanda yeyinti sənayesinin inkişafının tənzimlənməsi istiqamətləri"** adlanan III fəslində yeyinti sənayesinin inkişaf prioritetləri, yeyinti sənayesinin rəqabət qabiliyyətinin yüksəldilməsinin prioritet istiqamətləri, sahənin inkişafına investisiya cəlb edilməsinin stimullaşdırılması istiqamətləri müəyyənləşdirilmişdir.

Qeyd etmək lazımdır ki, respublikamızın yeyinti sənayesinin inkişafı ilə bağlı həyata keçirilən silsilə tədbirlərə baxmayaraq bu sahədə həllini gözləyən çoxsaylı problemlər də qalmaqdadır. Belə ki, istehsalatın modernləşdirilməsi, istehsal edilən məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində əhəmiyyətli irəliləyişlərə nail olunmamışdır. Bu isə yeyinti müəssisələri tərəfindən istehsal edilən məhsulların xarici bazarlara çıxarılmasında ciddi təhdid mənbəyi kimi çıxış edir. Qeyd edilir ki, yeyinti sənayesində əməyin mexanikləşdirilməsi prosesi 40-60% həddində həyata keçirilsə də, lakin bir sıra hallarda emal müəssisələrində əmək tutumlu əməliyyatların 50%-ə qədəri mexanikləşdirilməmiş qalır.

Yeyinti sənayesi müəssisələrinin modernləşdirilməsi zamanı, ilk növbədə enerji məsrəflərinin azaldılması mexanizmi hərəkətə gətirilməli, istehsal zamanı itkilərə yol verilməsinin qarşısı alınmalı və müxtəlif tullantıların ekoloji problemlər doğurmaması üçün onların emalı həyata keçirilməlidir.

Qeyd edilir ki, respublikamızda emal sənayesi müəssisələrinin ənənəvi bazarı kimi MDB ölkələri əhəmiyyətli rol oynayır. Fikrimizcə, məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsi həyata keçirilərsə emal sənayesi məhsullarının Avropaya, o cúmlədən ekoloji təmiz məhsulların Qərbi Avropa ölkələrinə ixracı mühüm valyuta gəlirlərinin mənbəyi rolunu oynaya bilərdi.

Məlumdur ki, ənənəvi məhsullarla müqayisədə ekoloji cəhətdən təmiz məhsul istehsalının baha başa gəlməsi və onun genetik modifikasiya olunmuş elementlərdən uzaq olması ön plana çəkilir. Bu baxımdan ekoloji təmiz qida məhsullarının istehsal prosesi, ilk növbədə kənd təsərrüfatı xammalının istehsalı prosesindən başlanmalıdır. Kənd təsərrüfatında növbəli əkin sisteminin tətbiq edilməsi və eləcə də mikrobioloji, bitki və heyvan mənşəli gübrələrdən istifadə edilməsi nəzərdə tutulmalıdır. Bununla yanaşı ekoloji cəhətdən təmiz məhsul istehsalına istiqamətlənmiş tədbirlər çərçivəsində zəruri satış və bazar infrastrukturlarının formalaşdırılması mühümdür. Ərzaq məhsullarının istehsalına çəkilən xərclərin aşağı salınmasında alternativ enerji mənbələrindən istifadə imkanları təmin edilməlidir.

Aparılan tədqiqatlar göstərir ki, qida sənayesi müəssisələrində rəqabət qabiliyyəti digər sənaye sahələri ilə müqayisədə özünəməxsus fərqli xüsusiyyətləri ilə səciyyələnir. Bu xüsusiyyətlər ilk növbədə onunla bağlıdır ki, qida sənayesinin xammal bazasını kənd təsərrüfatı təşkil edir. Nəzərə almaq lazımdır ki, bu proses inkişaf etməkdə olan ölkələr üçün daha çox xarakterikdir. Emal sənayesi müəssisələrində rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından həyata keçirilən tədbirlər zamanı ilk növbədə həmin müəssisənin fəaliyyətinin spesifikası ön plana çəkilməli və eləcə də bazarda fəaliyyət xüsusiyyətləri nəzərə alınmalıdır. Ərzaq məhsullarının istehsalına çəkilən xərclərin aşağı salınması və bu mahiyyət etibarilə istər enerji və istərsə də digər məsrəflərin aşağı salınmasını özündə əks etdirməli, alternativ enerji mənbələrindən istifadə edilməlidir.

Yeyinti sənayesində rəqabət qabiliyyətinin yüksəldilməsində mühüm xüsusiyyətlərdən biri də məhsulun keyfiyyətidir. Eyni zamanda yeyinti sənayesi müəssəsinin rəqabət qabiliyyətinin yüksəldilməsi innovasiya fəaliyyətinin gerçəkləşdirilməsindən asılıdır.

İnnovasiya prosesini iki aspektdə təsnifləşdirmək mümkündür. Bunlardan birincisi, dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olunmuş qida məhsullarına investisiya fəaliyyətinin gerçəkləşdirilməsi, ikincisi investisiya fəaliyyəti və innovasiyalardır.

Yeyinti sənayesində rəqabət qabiliyyətinin yüksəldilməsinə təsir göstərən bir sıra amillər amillər aşağıdakı sxemdə öz əksini tapmışdır.




**Sxem 3. Yeyinti sənayesində rəqabətqabiliyyətinin yüksəldilməsinə təsir göstərən amillər**

*Mənbə: Sxem müəllif tərəfindən tərtib edilmişdir.*

Fikrimizcə, respublikada yeyinti sanayesinin rəqabət qabiliyyətinin yüksəldilməsinə nail olmaq üçün əsas istehsal fondlarının səmərəliliyinin yüksəldilməsinə nail olunmalı, fiziki və mənəvi cəhətdən aşınmış texnologiyalardan istifadə dayandırılmalı, modern texnologiyaların, elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi stimullaşdırılmalıdır. Yeyinti sənayesi müəssisələri regionlarda ixtisaslaşma nəzərə alınmaqla yerləşdirilməli və yenidən qurulmalıdır.

Bu baxımdan yeyinti sənayesi müəssisələrində rəqabət qabiliyyətinin GZİT təhlilini aparılmışdır.

**"Nəticə" bölməsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi əhəmiyyətli təklif və tövsiyələr verilmişdir.**

1. Aqrar sahədə inteqrasiya proseslərinin formalaşdırılmasında başlıca məqsəd kənd təsərrüfatı xammalından hazır məhsul əldə edilməsi və bu sahədə iqtisadi səmərə əldə edilməsi və ixtisaslaşmış kənd təsərrüfatı və emal müəssisələri arasında güclü əlaqənin yaradılması hesab olunur. Bu zaman istər kənd təsərrüfatı əmtəə istehsalçılarının və istərsə də yeyinti sənayesi müəssisələrinin, daha doğrusu inteqrasiya prosesində iştirak edən bütün tərəflərin qarşılıqlı maddi maraqlarının təmin edilməsi xüsusilə mühüm aktuallıq və praktiki əhəmiyyət kəsb edir.

2. Yeni iqtisadi münasibətlər şəraitində kənd təsərrüfatı ilə emal sənayesi müəssisələri arasında inteqrasiya münasibətlərində, ilk növbədə bazar vektorları, qlobal təhdidlər və dövlətin strateji maraqları baxımından ərzaq təhlükəsizliyinin təmin edilməsi başlıca fundamental prinsip sayılır. İnteqrasiya prosesində bazar vektorları ilk növbədə azad rəqabət, əmtəə istehsalçılarının iqtisadi müstəqilliyinin qorunub saxlanılması, kənd təsərrüfatı və ərzaq məhsulları bazarında bu və ya digər məhsullara olan tələb və təklifin nəzərə alınması və həmçinin beynəlxalq bazar konyunkturunda baş verən dəyişikliklərə səmərəli reaksiya göstərilməsi hesab olunur. İnteqrasiya münasibətlərinə qlobal təhdidlər isə qloballaşma prosesi zəminində özünü daha çox biruzə verir. Qlobal təhdidlərə ilk növbədə qlobal iqlim dəyişikliklərini və digər ərzaq məhsullarının qiymətlərinin yüksəlməsini və bütövlükdə bazar tərəddüdlərini, eyni zamanda dempinq proseslərini şamil etmək olar. Bütün bunları, əhalinin dəyişən tələbini, rəqabət qabiliyyətli yeyinti məhsulları istehsalının artırılmasına, müasir dövrdə ərzaq təhlükəsizliyinin təmin olunmasına əngəl törədən amilləri və ərzaq təhlükəsizliyi Dövlət Proqramının müddətinin başa çatmasını nəzərə alaraq, torpaqlarımızın işğaldan azad olduğu bir şəraitdə ərzaq təminatının səmərəliliyini, davamlılığını təmin etmək məqsədi ilə 7 ili (2024-2030-cu illəri ) əhatə edən yeni kompleks ərzaq təhlükəsizliyi Dövlət Proqramının qəbul olunmasını məqsədəuyğun hesab edirik.

3. Sahənin özünəməxsus özəllikləri, eləcə də qloballaşma prosesinin təsirləri mahiyyət etibarilə, inteqrasiya münasibətlərində destruktiv vəziyyətin yaranmasına gətirib çıxarır. Bu meyllərin yaranmasına təsir edən amilləri aşağıdakı kimi təsnifləşdirmək mümkündür:

- kənd təsərrüfatı istehsalının mövsümiliyi;
- məhsulun uzun müddət saxlanma imkanlarının təmin edilməməsi;
- təbii şəraitinin təsiri nəticəsində risklərin qeyri-müəyyənliyi;
- qida sənayesinin intensivləşməsi baxımından inkişaf etmiş ölkələrdən əhəmiyyətli dərəcədə geri qalması;
- kənd təsərrüfatında və yeyinti sənayesində istifadə edilən maşın və texnologiyaların fiziki və mənəvi cəhətdən köhnəlməsi;
- kənd təsərrüfatında və yeyinti sənayesi müəssisələrində bazar infrastrukturlarının zəif inkişaf etməsi.

4. Kənd təsərrüfatı əmtəə istehsalçılarının istifadə etdiyi torpaq sahəsinin məhdud və kiçik həcmdə olması onların inteqrasiya prosesində bərabər hüquqlu tərəf kimi iştirak imkanlarını məhdudlaşdırır. Kənd təsərrüfatı əmtəə istehsalçılarının az bir qismində iri torpaq sahələri mövcuddur və həmin torpaq sahələrinin olması, bütövlükdə onların yeyinti müəssisələrinin inteqrasiya münasibətlərinə girməsinə və eləcə də, öz sərəncamında emal müəssisələri saxlamağa imkan verir. Bu baxımdan kooperativlərin və (üzümçülük, taxılçılıq, ət-süd istehsalı və emalı üzrə) yaradılması və səmərəli idarəetmənin təşkilinə üstünlük verilə bilər.

5. Kənd təsərrüfatı məhsullarının emalı sənayesinin inkişaf etdirilməsi ilə bağlı ölkəmizdə mövcud imkanların yüksək olduğunu nəzərə alaraq, xüsusilə, sahənin ayrı-ayrı yarım komplekslərində məhsul istehsalının artırılması və emal sənaye müəssisələrin inkişafı istiqamətində zəruri tədbirlər gerçəkləşdirilməlidir. Məsələn, heyvandarlıq kompleksində ağartı məhsullarının nəinki daxili bazarın tələbatının ödənilməsi, eyni zamanda MDB ölkələrinə və Avropa bazarlarına çıxarılması mümkündür. Digər qida məhsulları üzrə də müəssisələrin yaradılmasına baxıla bilər.

6. Müasir dövrdə qloballaşma prosesinin ən yeni çağırışları, əslində insanların qidalanma prosesində də əhəmiyyətli dəyişiklikləri

nəzərdə tutulur. Belə ki, xarici ölkələrdə olduğu kimi, artıq orta təbəqə də daha çox ekoloji təmiz məhsullara üstünlük verməyə çalışır. Təbiidir ki, yüksək maliyyə imkanlarına malik olan təbəqə, ekoloji təmiz məhsullarla qidalanır. Amma orta təbəqənin də artıq bu prosesə qoşulması bütövlükdə ölkəmizdə yeyinti məhsulları istehsalının rəqabət qabiliyyətinin təmin edilməsi istiqamətində zəruri tədbirlərin gerçəkləşdirilməsi, eləcə də istehsal edilən məhsulların insanların sağlamlığına mənfi təsir göstərməyəcək səviyyədə bioloji komponentlərlə zəngin olması vacib şərtlərdən biri ola bilər. Yeyinti sənayesinə xarici investisiyaların cəlb edilməsinin stimullaşdırılması da mühüm məsələlərdən biri ola bilər. Burada əlverişli biznes mühitinin yaradılmasına həm daxili mühiti, həm də xarici mühiti qarşılıqlı əlaqədə nəzərdə tutmaq vacib hesab edilir.

7. Dövlət Statistika Komitəsinin 2022-ci ilə olan məlumatına görə, ölkədə fəaliyyət göstərən yeyinti müəssisələrinin 448 mikro, 164 ədədi kiçik, 158 ədədi isə orta və iri müəssisələrinin payına düşür. Rəsmi statistikada diqqəti cəlb edən məqam iri və orta müəssisələrinin sayının mikro müəssisələrə nisbətən daha az olmasıdır. Bu da əhalinin davamlı şəkildə artan və dəyişən tələblərini tam qarşılamağa əngəl törədir. Fikrimizcə, iri müəssisələrin sayı nə qədər çox olarsa, investisiya cəlbediciliyi, yeni texnologiyaların tədbiqi və rəqabət qabiliyyətiliyinin yüksəldilməsi imkanı bir o qədər çox olar. Həm də iri müəssisələrin məhsullarının maya dəyərini aşağı salmaq imkanı daha çox olduğundan, əmək məhsuldarlığını artırmaq imkanı daha çoxdur. Bu baxımdan dövlət tərəfindən zəruri stimullaşdırıcı tədbirlər görülməlidir.

8. Araşdırmalardan belə qənaətə gəlmək olar ki, müasir şəraitdə yeyinti sənayesinin inkişafının prioritet istiqamətləri ilk növbədə ənənəvi məhsul istehsalı ilə ekoloji cəhətdən təmiz məhsul istehsalının sintezi əsasında istehsal prosesinin modernləşdirilməsini özündə etiva etməlidir. Bu prosesin reallaşdırılması fonunda həm ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının ödənilməsini təmin etmək, eyni zaman da daxili bazarın yerli istehsal hesabına tarazlı inkişafını formalaşdırmaq mümkündür və eyni zamanda idxaldan asılılığı aradan qaldırmaq və həm də ixracının həcmini artırmaq mümkündürki, bu da mahiyyət etibarilə dövlət büdcəsinə

alternativ gəlir mənbələrinin formalaşdırmağı özündə birləşdirə bilər. Ümumiyyətlə, yeyinti sənayesinin inkişafında diversifikasiya proseslərinə əməl edilməsi mahiyyət etibarilə həm ixracın və həm də bütövlükdə iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsinə əlverişli şərait yarada bilər. Bu isə məhsul istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsinə və eyni zamanda məhsulun keyfiyyətinin yüksəldilməsini təmin etməklə xarici bazarlarda daha çox mövqe sərgiləməyə əlverişli şərait yarada bilər.

9. Respublikamızda fəaliyyət göstərən yeyinti müəssisələrinin və eləcə də xarici şirkətlərlə yaradılan birgə müəssisələrin fəaliyyətində daha çox yerli kənd təsərrüfatı xammalından istifadə edilməsi, hazır məhsul istehsalı ön plana çəkilməlidir. Bu baxımdan hesab edirik ki, dövlət tərəfindən zəruri iqtisadi vasitələrlə stimullaşdırma tədbirləri gerçəkləşdirilməlidir. Daxili xammaldan istifadə edən yeyinti müəssisələri üçün müəyyən əlavə vergi güzəştlərinin ( kredit, gömrük və s.) tətbiq edilməsi də məhz xarici investisiyaların cəlb edilməsində və eləcə də, bu sahədə həyata keçirilən digər stimullaşdırıcı tədbirlərin gerçəkləşdirilməsində mühüm əhəmiyyət kəsb edə bilər. Bu prosesin müvəffəqiyyətli cəhəti ondan ibarətdir ki, yeyinti sənayesi müəssisələri daxili kənd təsərrüfatı xammalına üstünlük verdikləri halda, bütün bunlar kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsinə və eləcə də onların rentabelli təsərrüfat maliyyə fəaliyyətinin gerçəkləşdirilməsinə əlverişli şərait yarada bilər.

10. Aparılan tədqiqatlardan belə qənaətə gəlmək olar ki, qida sənayesi müəssisələrində rəqabət qabiliyyəti digər sənaye sahələri ilə müqayisədə özünəməxsus fərqli xüsusiyyətləri ilə səciyyələnir. Bu xüsusiyyətlər, ilk növbədə, onunla bağlıdır ki, qida sənayesinin xammal bazasını kənd təsərrüfatı təşkil edir və eyni zamanda bu sahədə kəskin rəqabət və sənaye müəssisələrinin kənd təsərrüfatı müəssisələri üzərində dominant mövqeyi bir sıra hallarda daha hakim mövqe tutur. Bu proses inkişaf etməkdə olan ölkələr üçün daha çox xarakterikdir. Yeyinti sənayesi müəssisələrində rəqabətqabiliyyətinin yüksəldilməsi baxımından həyata keçirilən tədbirlər zamanı, ilk növbədə, həmin müəssisənin fəaliyyətinin spesifikasını ön plana çəkinməli və eləcə də, bazarda fəaliyyət xüsusiyyətləri nəzərə alınmalıdır.

11. Müasir şəraitdə yeyinti sənayesinin inkişafının prioritet istiqamətləri, ilk növbədə, ənənəvi məhsul istehsalı ilə ekoloji cəhətdən təmiz məhsul istehsalının sintezi əsasında istehsal prosesinin modernləşdirilməsini özündə ehtiva etməlidir. Bu prosesin reallaşdırılması fonunda həm ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının ödənilməsini təmin etmək, eyni zamanda daxili bazarın yerli istehsal hesabına tarazlı inkişafını formalaşdırmaq mümkündür. Həmçinin, idxaldan asılılığı aradan qaldırmaq və həm də ixracın həcmini artırmaq mümkündür ki, bu da mahiyyət etibarilə dövlət büdcəsinə alternativ gəlir mənbələrinin formalaşdırmağı özündə birləşdirə bilər. Ümumiyyətlə, yeyinti sənayesinin inkişafında diversifikasiya proseslərinə əməl edilməsi mahiyyət etibarilə həm ixracın və həm də bütövlükdə iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsinə əlverişli şərait yarada bilər və bu da məhsul istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsinə və eyni zamanda məhsulun keyfiyyətinin yüksəldilməsini təmin etməklə, xarici bazarlarda daha çox mövqe sərgiləməyə əlverişli şərait yarada bilər.

**Dissertasiya işinin əsas müddəaları, əldə edilmiş nəticə və təkliflər müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Hüseynova, N.R. Azərbaycanda sənaye müəssisələrinin ekoloji tənzimlənməsi istiqamətləri // – Bakı: "Azərbaycan Xalq Cumhuriyyəti və müasir Azərbaycanın inkişaf istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. 3-4 may, 2018 – s. 490-491

2. Hüseynova, N.R. İnsan kapitalının idarə edilməsi və inkişaf amilləri. // – Bakı: "Milli iqtisadiyyatın perspektiv inkişafı üzrə Strateji Yol Xəritəsi: İnsan kapitalının formalaşmasının prioritet istiqamətləri" respublika elmi-praktiki konfransın materialları, 2018. – s. 213-221.

3. Hüseynova, N.R. Azərbaycanda yeyinti sənayesinin inkişafı və investisiyanın prioritet istiqamətləri // – Bakı: "Audit" jurnalı №1. 2020. – s. 113-123.

4. Huseynova, N.R. The directions of increasing the products of the food industry in the period of technological development. // – Bakı: "Rəqəmsal iqtisadiyyat Azərbaycan yeni iqtisadi inkişaf

mərhələsində" mövzusunda respublika elmi-praktiki konfransı, 2020. – s.403-405.

5. Hüseynova, N.R. Yeyinti sənayesi məhsullarının artırıması istiqamətləri. // – Bakı: "Keyfiyyət təminatı rəqabətqabiliyyətli iqtisadi inkişafın əsas amili kimi" mövzusunda beynəlxalq elmi-praktiki konfrans. 2022. – s. 373-376.

6. Hüseynova, N.R. Müasir şəraitdə kənd təsərrüfatı ilə emal sənayesi arasında inteqrasiya münasibətləri və ona təsir edən edən amillər // – Bakı: "Audit" jurnalı №3. 2022. – s. 75-82.

7. Hüseynova, N.R. Azərbaycanda yeyinti sənayesinin xammal ehtiyatlarının innovativ yollarla genişləndirilməsi istiqamətləri // – Bakı: "Doktorantların və gənc tədqiqatçıların XXV Respublika Elmi konfransı", 2022. – s.217-222.

8. Hüseynova, N.R. Qida məhsullarına investisiyaların cəlb edilməsinin stimullaşdırılması. // – Bakı: "AEM" Elmi İş Beynəlxalq Elmi jurnal, 2022. – s. 44-49.

9. Hüseynova, N.R. Qida sənayesi məhsullarının inkişafına və formalaşmasına təsir edən amillər. // – Bakı: "Kooperasiya" elmi-praktiki jurnal. №4, 2022. – s. 90-97.

10. Huseynova, N.R. The development of food industry in ensuring of the food security. // – Budapest, Hungary: The scientific heritage journal. № 104. 2022. – p. 19-22.

11. Hüseynova, N.R., Əliyev T.M. Buğda emalı sənayesi müəssisələrində innovasiya tədbirləri və layihələrinin səmərəliliyinin qiymətləndirilməsi. // – Bakı: "Audit" jurnalı, №4. 2023. – s. 65-75.

12. Huseynova, N.R. Directions of increasing eco-friendly foods production. // – Madrid, Spain: I International Scientific and Practical Conference "Modern science theoretical and practical view, February 2023. – p. 6-8.



Dissertasiyanın müdafiəsi 27 dekabr 2023-cü il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 27 noyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.11.2023

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 46441 işarə

Tiraj: 100